

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 77 (20.978)

29 aprel 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Aprelin 28-də Bakıda İkinci Qlobal Açıq Cəmiyyətlər Forumu işə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılışında iştirak etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Ukraynanın keçmiş Prezidenti Viktor Yuşşenkonu qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Gürcüstanın keçmiş Prezidenti Mixeil Saakaşvilini qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldini qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Belçika Krallığının keçmiş Baş naziri İv Letermi qəbul etmişdir.




# Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümü münasibətilə tədbirlər keçirilmişdir




Aprelin 28-də Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında görkəmli oftalmoloq-alimin anadan olmasının 91-ci ildönümü münasibətilə tədbir keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə akademik Zərifə xanım Əliyevanın poliklinikanın foyesindəki büstü önünə gül dəstələri qoymuş, onun xatirəsinə həsr olunmuş guşədə alimin həyat və fəaliyyətini əks etdirən maraqlı foto və kitablarla, həmçinin tanınmış insanların görkəmli oftalmoloq-alim haqqında fikirləri ilə tanış olmuşlar.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov açaraq qeyd etmişdir ki, Naxçıvan Şəhər Poliklinikası 1990-cı ildən görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Ümummilli lider Heydər Əliyev 1990-cı və 1999-cu illərdə poliklinikada olmuş, görkəmli alimin büstünün və xatirəsinə həsr olunmuş guşənin açılış mərasimində iştirak etmişdir. 2012-ci ilin mayında ölkə Prezidenti cənab İlham Əliyev Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının yeni binasının açılışında iştirak etmişdir. Akademikin adını daşıyan səhiyyə müəssisəsində işləmək hər bir tibb işçisinin üzərinə böyük məsuliyyət qoyur. Milli oftalmologiyanın banisi akademik Zərifə xanım Əliyevanın keçdiyi həyat yolu, misilsiz xidmətləri, apardığı tədqiqatlar əsl təcrübə məktəbidir.





Sonra Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında yaradılan şəraitdən bəhs edən videoçarx nümayiş etdirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasının baş həkimi Səidə Hüseynovanın, Naxçıvan Şəhər Poliklinikasının həkimlərindən Tamella Bayramovanın, Kəmalə Seyidovanın çıxışları olmuşdur. Çıxışlarda bildirilmişdir ki, görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın anadan olmasından 91 il ötür. 1923-cü il aprelin 28-də Şahtaxtı kəndində dünyaya göz açan Zərifə xanımın xarakterində Azərbaycan ziyalısının ən gözəl xüsusiyyətləri cəmləşmişdir.

Qeyd olunmuşdur ki, Zərifə xanımın çoxşaxəli elmi fəaliyyəti hələ sağlığında öz qiymətini almışdır. 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. 1983-cü ildə isə görkəmli alim Zərifə Əliyeva Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdir. Akademik Zərifə xanım Əliyeva geniş ictimai fəaliyyətinə görə keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş ittifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuş, bir sıra orden və medallara layiq görülmüş, "Azərbaycanın əməkdar elm xadimi" fəxri adını almışdır. Alim təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, yüksəkixtisaslı gənc kadrların yetişdirilməsinə və oftalmoloq həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir. Zərifə xanımın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə qalacaq, onun parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaqdır.

Sonda Naxçıvan Qızlar Liseyinin şagirdləri görkəmli alimə həsr olunmuş şeirləri bədii qiraət etmişlər.

* * *





Aprelin 28-də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümü münasibətilə Kəngərli rayonunun Şahtaxtı kənd tam orta məktəbində tədbir keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə Zərifə xanım Əliyevanın məktəbin foyesindəki büstü önünə gül dəstələri qoymuş, adını daşıyan muzeyə baxmışlar. Sonra tədbiri məktəbin direktoru Zal Rüstəmov açmışdır.

Tədbirdə məktəbin müəllimlərindən Həmid Hüseynovun "Zərifə xanım Əliyevanın həyat və fəaliyyəti" və Arifə Əhmədovanın "Gözlərə nur bəxş edən insan" mövzularında məruzələri dinlənilmişdir. Bildirilmişdir ki, Zərifə xanım Əliyeva 91 il bundan əvvəl görkəmli dövlət xadimi, Azərbaycan səhiyyəsinin qurucusu və təşkilatçısı olan Əziz Əliyevin ailəsində dünyaya göz açmışdır. Uşaq yaşlarından həkimlik sənətinə hədsiz maraq göstərən Zərifə xanım 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə oranı müvəffəqiyyətlə bitirərək Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçmişdir. Elmi tədqiqatlara olan hədsiz marağı onu Azərbaycan Oftalmologiya Elmi-Tədqiqat İnstitutuna gətirib çıxarmışdır. 1950-1953-cü illərdə Zərifə xanım Əliyeva aspiranturada təhsil almış və elmi tədqiqatla məşğul olmuşdur. Taleyini tibb elminə həsr edən görkəmli alim oftalmologiyanın aktual problemlərinə dair çoxsaylı tədqiqatlar aparmış, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf etmiş, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının tapılması istiqamətində səmərəli elmi araşdırmalar aparmışdır.

Vurğulanmışdır ki, Zərifə xanım Əliyeva dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq elm aləmində yeni bir istiqamətin – "peşə oftalmologiyası"nın əsasını qoymuşdur. Bu mənada oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsi böyük alimin adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları ona böyük şöhrət gətirmişdir. Zərifə xanım elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənmiş və bu xəstəliklərin profilaktikası üsullarını işləyib hazırlamışdır. Onun bu sahədəki ciddi axtarışları dünya tibb elmi ədəbiyyatında nadir tədqiqatlar sırasındadır.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev çıxış edərək bildirmişdir ki, görkəmli alim Zərifə Əliyevanın yüksək mənəvi zənginliyə malik irsi bu gün hər birimiz üçün əhəmiyyətlidir. Məhz Zərifə xanımın böyük zəhməti sayəsində Azərbaycanda oftalmologiya sahəsində mühüm elmi nailiyyətlər qazanılmışdır. Ümummilli liderimiz Heydər Əliyevə hər zaman arxa-dayaq, vəfalı ömür-gün yoldaşı olmuş Zərifə xanım Əliyeva həm də ailədə övladlarının vətənpərvər ruhda böyüməsinə böyük töhfə vermişdir.

Sonda məktəbin şagirdləri Zərifə xanım Əliyevaya həsr olunmuş şeirləri bədii qiraət etmişlər.

**"Şərq qapısı"**

* * *

***Dünən Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Yeni Azərbaycan Partiyası (YAP) Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının təşkilatçılığı ilə akademik Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümü münasibətilə elmi-praktik konfrans keçirilmişdir.***

Tədbiri giriş sözü ilə YAP Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yazgül Rzayeva açaraq görkəmli oftalmoloq-alimin həyat və fəaliyyətindən bəhs etmişdir.

Sonra Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasının həkim-oftalmoloqu Rəhmiyyə Əliyevanın, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim-oftalmoloqu Gülşən Dikmənin, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının üzvlərindən Naxçıvan Uşaq Bərpa Mərkəzinin baş həkimi Şəhla Əhmədovanın, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədovanın və YAP Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərlinin çıxışları olmuşdur.

Sonda akademik Zərifə Əliyevanın həyat və fəaliyyətini əks etdirən slaydın və filmin nümayişi olmuşdur.

**Xəbərlər şöbəsi**

**Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ölkəmizdə və onun hüdudlarından kənarda geniş qeyd olunur. Dünyanın müxtəlif ölkələrinin qəzet və jurnallarında muxtar respublika haqqında yazılar dərc olunur, xəbər portallarında, internet saytlarında məqalələr, məlumatlar yerləşdirilir. Bu yaxınlarda Rusiyanın "Moskovskiy komsomoleç" ("Moskva komsomolçusu") elektron qəzetində Azərbaycan Respublikasının Yekaterinburqdakı Baş konsulu Sultan Qasımovun Naxçıvan haqqında məqaləsi işıq üzü görmüşdür. Həmin yazının tərcüməsini oxucularımıza təqdim edirik.**

# Azərbaycanın ürəyi

*Naxçıvan Muxtar Respublikasının 90 yaşı tamam olur*

Azərbaycanın ayrılmaz tərkib hissəsi, Azərbaycan dövlətçiliyinin dayağı, təbii sərvətlərlə zəngin və şanlı tarixi olan diyar, çoxlu sayda görkəmli insanların Vətəni Naxçıvan Muxtar Respublikası ilə ölkəmiz haqlı olaraq fəxr edir. Həyat və yaradıcılığı bu torpaqla bağlı olan memarlar, filosoflar, şairlər, maarifçilər, alimlər, mütəfəkkirlər, sərkərdələr insanlığın ümumi xəzinəsinə nəhəng töhfələr vermişlər.

Naxçıvan sivilizasiyanın yaranma mərkəzlərindən biridir. Burada dörd min il bundan əvvəl inkişaf etmiş şəhərlər vardı. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərinin isə 5 min ildən artıq yaşı var. Hələ iki min il bundan əvvəl Naxçıvan vadisində Roma legionerləri ilə başdan-ayağa silahlanmış Parfiya çarlığının süvariləri ölümdirim savaşına girmişlər. Muxtar respublikada 700-ü arxeoloji olmaqla, 1200-dən artıq abidə vardır və hər il alimlər yeni abidələr tapmaqda davam edirlər. Lakin hələ nə qədər çoxlu sirlər açılmamış qalır! Tədqiqatçılar hələ çoxsahifəli Naxçıvan salnaməsinin nə qədər maraqlı və heyranedici tarixini yazacaqlar. Bu diyar əsrlərin dərinliyinə gedən geniş, hərtərəfli mədəniyyəti ilə də tanınır. Zamanla yüzlərlə nişanəsi ilə özünü xatırladan mif və əfsanələr, mahnı və deyimlər, adət və ənənələr naxçıvanlıların həyatını bəzəyir. Çoxlu sayda kitabxana və muzeylər, teatrlar, böyük universitet, AMEA-nın filialı da belə bir mirasla yanaşıdır.

Burada buludlardan da yüksəyə qalxan dağlarla yanaşı, sonu görünməyən səhralar uzanır. Çoxlu sayda kiçik çaylardan və dağ çaylarından qidalanan yaşıllıqlar və Günəşin şüaları altında sanki əbədi daşlaşmış quru çaylar da buradadır. Həmçinin sanki quşların da tək-tük qonaq olduğu səhralar, geniş bağlarla əhatə olunmuş qələbəlik kəndlər, orta əsrlərdən qalma dar küçələri olan səliqəli şəhərlər və muxtar respublikanın paytaxtında müasir binalar və geniş prospektlər vardır. Ömründə heç olmasa bir dəfə bu ecazkar diyarda olmuş, onun mənzərəsinə doya-doya tamaşa etmiş, təmiz su qaynaqlarının dadından ləzzət almış və yerli insanların qonaqpərvərliyini hiss etmiş hər bir insan ürəyində həmişəlik olaraq Naxçıvan məhəbbəti saxlayır.

Bu il Naxçıvan Muxtar Respublikasının yaradılmasından 90 il ötür. Bu dövr həyatın bütün sferalarında – iqtisadiyyatda, elmdə, mədəniyyətdə görkəmli uğurlar dövrüdür. Ancaq naxçıvanlılar həm də kənardan yaradılmış blokadanın bir çox çətinliklərinə də sinə gərməli olmuşlar. Bu sınaqlar naxçıvanlıların iradəsini qıra bilməmiş, əksinə, onları daha mətin və sıx etmişdir. Naxçıvan Azərbaycanın tərkib hissəsi olmuş və olaraq qalmaqdadır.

28 iyul 1920-ci ildə Naxçıvanda Sovet hakimiyyəti qurulmuş və Naxçıvan Sovet Respublikası elan edilmişdir. 1923-cü ildə diyar Naxçıvan Muxtar Diyarı statusu almış, 9 fevral 1924-cü ildən 17 noyabr 1990-cı ilədək o, Naxçıvan MSSR statusunda olmuşdur. 17 noyabr 1990-cı ildə Naxçıvan MSSR Ali Sovetinin ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında dahi şəxsiyyətin təşəbbüsü ilə muxtar respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarılmışdır. Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir.

Heydər Əlirza oğlu Əliyev bu diyarın yetirməsidir. O, uzun müddət Azərbaycan Respublikasında ən yüksək rəhbər vəzifə tutmuş və 1982-ci ildə Sovetlər İttifaqının başçısı Andropovun təkidi ilə Moskvaya gəlmiş və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışmışdır. 1985-ci ildə Heydər Əliyev Mixail Qorbaçovu dəstəkləsə də, o, hakimiyyətə gələn kimi Heydər Əliyevin şöhrətinə paxıllıq edərək onun istefasına nail olmuşdur.

1990-cı ildə Heydər Əliyev Azərbaycana qayıtdı, artıq həmin ilin payızı o, Naxçıvandan Azərbaycan SSR-in deputatı seçildi. Bir il sonra, 1991-ci ilin sentyabrında o, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Bakıdakı hakimiyyət öz işləri ilə məşğul ikən o, bu vəzifədə muxtar respublikanın xarici əlaqələrini əhəmiyyətli dərəcədə möhkəmləndirdi.

– ***Məhz həmin 1990-cı illərdə Naxçıvanın taleyi həll olunurdu. Əgər həmin illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar böyük liderin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi,*** – o dövrlərdəki hadisələr haqqında Azərbaycan Prezidenti cənab İlham Əliyev belə deyir.

Bu dövrdə Naxçıvandakı vəziyyət gərgin zəhmət hesabına stabil olmuşdur. O dövrkü Azərbaycan rəhbərliyi Naxçıvana ögey yanaşmış, ona heç bir köməklik göstərilməmiş, tam əksinə, Naxçıvandakı vəziyyətin gərginləşməsi və sabitliyin pozulması üçün ona əsassız mənfi münasibət göstərilmişdir. Ancaq naxçıvanlılar, həmişə olduğu kimi, müdriklik göstərərək öz liderinin ətrafında yumruq kimi möhkəm birləşmişlər.

Beləliklə, Azərbaycanın tarixinin Naxçıvandan əsası qoyulan yeni erası başlanmışdır.

**Sultan QASIMOV**
***Azərbaycan Respublikasının Yekaterinburqdakı Baş konsulu***







*Кажется, весь Нахичеван вышел на площадь, чтобы поприветствовать своего знаменитого земляка. 22 июля 1990 г.*









## Prezident Kitabxanasında “Naxçıvan Muxtar Respublikası” elektron portalının ingilis dilində versiyasının təqdimat mərasimi olmuşdur

***Aprelin 24-də Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında “Naxçıvan Muxtar Respublikası” elektron portalının yenilənmiş variantının və onun ingilis dilində yaradılmış versiyasının təqdimat mərasimi keçirilmişdir.***



AzərTAc xəbər verir ki, tədbirin iştirakçıları əvvəlcə kitabxananın internet resursları zalında Naxçıvanın tarixinə, mədəniyyətinə, iqtisadiyyatına aid 50-yə yaxın Azərbaycan, türk, ingilis və rus dillərində elektron kitabların CD-ləri ilə tanış olmuşlar. Naxçıvan tarixinin müxtəlif dövrlərini özündə əks etdirən 40-a yaxın arxiv sənədinin surəti, muxtar respublika ilə bağlı 100-dən artıq dissertasiyanın avtoreferatları və müxtəlif dillərdə çap olunmuş 200-dək kitab da qonaqların marağına səbəb olmuşdur.

Daha sonra tədbir konfrans zalında davam etdirilmişdir. Prezident Kitabxanasının direktoru Mayıl Əhmədov bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasının yaranmasının 90 illiyi ilə əlaqədar həyata keçirilən tədbirlər planı çərçivəsində hazırlanan internet portalının ərsəyə gəlməsində muxtar respublikanın Bakı şəhərindəki Daimi Nümayəndəliyinin verdiyi informasiya dəstəyi xüsusi rol oynamışdır. O qeyd etmişdir ki, “Naxçıvan Muxtar Respublikası” elektron portalı hələ beş il bundan öncə hazırlanmışdır. Bu gün Prezident Kitabxanasının əməkdaşları həm portalın Azərbaycan dilində olan versiyasını materiallarla zənginləşdirmiş, həm də onun ingilis dilində yeni versiyasını hazırlamışlar. “Ümumi məlumat”, “Tarix”, “Təhsil və səhiyyə”, “Mədəniyyət”, “İqtisadiyyat”, “Resurslar” adlı 6 bölmə və 38 alt bölmədən ibarət olan bu resurs internet istifadəçilərinə muxtar respublika haqqında dolğun məlumat vermək məqsədi daşıyır.

Mayıl Əhmədov demişdir ki, elektron portalın “Ümumi məlumat” bölməsində istifadəçilər Naxçıvan Muxtar Respublikası haqqında ətraflı məlumat əldə edə, onun Konstitusiyası ilə tanış ola biləcəklər. Bu bölmədə muxtar respublikanın inzibati-ərazi vahidləri, əhalisi, təbiəti və təbii sərvətləri haqqında məlumatlar da yer almışdır. Prezident Kitabxanasının direktoru onu da əlavə etmişdir ki, elektron portalda Naxçıvanın qədim dövrlərdən azərbaycanlıların Vətəni olduğunu təsdiq edən tarixi faktlara xüsusi yer verilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Əməkdar elm xadimi, akademik İsa Həbibbəyli elektron portalın hazırlanmasında böyük əmək sərf edən, ciddi elmi araşdırmalar aparan və həmin araşdırmaları ümumiləşdirərək istifadəçilərə təqdim edən Prezident Kitabxanasının əməkdaşlarını təbrik edərək bildirmişdir ki, mənfur qonşularımızla informasiya savaşının davam etdiyi bir dövrdə “Naxçıvan Muxtar Respublikası” elektron portalının yenilənməsi və onun ingilis dilində versiyasının hazırlanması xüsusi əhəmiyyətə malikdir. Portalın zənginləşdirilməsi üçün akademik səviyyədə iş görülmüş, elmi dəyəri olan 200-dən çox kitaba istinad edilmişdir.

Naxçıvan tarixinin mühüm hadisələrini özündə əks etdirən “Xronologiya” bölməsinə diqqət çəkən akademik demişdir ki, bu bölmədə həm ümummilli liderimiz Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfərləri xronoloji ardıcıllıqla öz əksini tapmışdır. Naxçıvanda keçirilən müxtəlif görüşlərdə və tədbirlərdəki çıxışlarının tam mətnlərinin “Heydər Əliyev Naxçıvanda”, “İlham Əliyev Naxçıvanda” adlı yarımbölmələrdə istifadəçilərə təqdim edilməsi qədim diyarın müstəqillik dövrünü araşdırmaq istəyənlər üçün əsaslı mənbədir. Alim əlavə etmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışlarının tam mətnləri də ayrıca yarımbölmədə istifadəçilərə təqdim olunmuşdur.

“Naxçıvan Muxtar Respublikası” elektron portalının ingilis dilində yaradılmış versiyasının əhəmiyyətindən ətraflı söhbət açan AMEA-nın Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı Gövhər Baxşəliyeva demişdir ki, portalın daim yenilənməsi, zənginləşdirilməsi günümüzün ən vacib tələblərindən biridir. Qədim diyarın dəyərli tarixi abidələri barədə geniş məlumatların ingilis dilində dünya ictimaiyyətinə təqdim olunmasını yüksək qiymətləndirən G.Baxşəliyeva onu da demişdir ki, tarixdə iz qoymuş görkəmli naxçıvanlılar, dövlət, elm, ədəbiyyat və incəsənət xadimləri haqqında qısa biblioqrafik məlumatların öz əksini tapması alqışa layiqdir.

Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov ermənilərin ölkəmizə ərazi iddialarından əl çəkmədiyi bir vaxtda Azərbaycanın mühüm geostrateji məkanı olan Naxçıvana xüsusi diqqət göstərilməsinin və muxtar respublikanın tarixi barədə məlumatların yayılmasının önəmindən danışaraq demişdir ki, bu istiqamətdə atılan hər bir addım respublikamızın xarici siyasətinə dəstək xarakteri daşıyır. Bu mənada Naxçıvanın şanlı tarixinin və bugünkü inkişafının beynəlxalq ictimaiyyətə çatdırılması mühüm əhəmiyyət kəsb edir.

Milli Məclisin Təhlükəsizlik və Müdafiə Komitəsinin sədr müavini Aydın Mirzəzadə Azərbaycanın 20 faiz torpaqlarını zəbt edən təcavüzkar Ermənistanın blokadada saxladığı Naxçıvan Muxtar Respublikasının yüksəliş dövrünü yaşadığını bildirərək vurğulamışdır ki, həm bu, həm də dahilər yurdunun zəngin tarixi barədə məlumatların internet resursları vasitəsilə dünyaya çatdırılması beynəlxalq aləmdə ölkəmizin müsbət imicini möhkəmləndirir.

AMEA Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, Milli Məclisin deputatı Rafael Hüseynov da Ermənistanda Naxçıvanla bağlı müxtəlif iddiaların ortaya atıldığı bir vaxtda muxtar respublika barədə ingilis dilində internet portalının yaradılmasını yüksək qiymətləndirmişdir.

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı, AMEA-nın müxbir üzvləri Vəli Hüseynov, Vəli Əliyev, Milli Məclisin deputatları Musa Qasımlı və Qüdrət Həsənquliyev çıxış edərək “Naxçıvan Muxtar Respublikası” elektron portalının ingilis dilində yaradılmış versiyasının əhəmiyyətindən danışmışlar. Bildirilmişdir ki, portal Naxçıvan barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqla yanaşı, həm də xarici ölkələrin elmi ictimaiyyəti üçün əsaslı mənbə rolunu oynayacaqdır. Naxçıvana aid kitabların elektron versiyalarının, müxtəlif elmi jurnallarda və ayrı-ayrı qəzetlərdə Naxçıvan haqqında dərc edilən seçilmiş məqalələrin tam mətnlərinin burada toplanması elektron portalın əhəmiyyətini artırır.

## AMEA-da “Azərbaycan arxeologiya və etnoqrafiya elmlərinin inkişafında Naxçıvan məktəbi” mövzusunda elmi konfrans keçirilmişdir

***Aprelin 28-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) iclas salonunda “Azərbaycan arxeologiya və etnoqrafiya elmlərinin inkişafında Naxçıvan məktəbi” mövzusunda elmi konfrans keçirilmişdir.***

AzərTAc xəbər verir ki, Naxçıvan Muxtar Respublikasının yaranmasının 90 illiyi ilə əlaqədar həyata keçirilən tədbirlər planı çərçivəsində baş tutan elmi konfransı giriş sözü ilə açan AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru, tarix elmləri doktoru Maisə Rəhimova Azərbaycanın tərkib hissəsi olan Naxçıvan diyarının tarixi və arxeoloji abidələrlə zəngin olduğunu diqqətə çatdırmışdır. Vurğulamışdır ki, Daş dövrünə aid qədim insan düşərgələri, Neolitdən Son Tunc dövrünə qədər tarixi-mədəni inkişafın öyrənilməsində etalon abidələr sayılan qədim yaşayış yerləri, şəhər yerlərinin müdafiə tikililəri və memorial abidələr tariximizin bütün dövrlərinin öyrənilməsi üçün əvəzolunmaz informasiya mənbəyidir.

Naxçıvanın təbii-coğrafi mövqeyinə görə tarixin bütün dövrlərində Yaxın Şərqdə və Ön Asiyada gedən siyasi-mədəni proseslərdə yaxından iştirak etdiyini və şimal regionları ilə əlaqələrdə bilavasitə körpü rolunu oynadığını bildirən Maisə Rəhimova qeyd etmişdir ki, birinci Kültəpədən tapılmış Xalaf tipli saxsı məmulatı hələ bizim eradan əvvəl V minillikdən Naxçıvan ərazisində məskunlaşmış tayfaların Ön Asiyanın istehsal mərkəzləri ilə sıx əlaqəsi olduğunu təsdiqləmişdir.

Sovet dövründə bu diyarda genişmiqyaslı arxeoloji tədqiqatların aparılmadığını, yalnız ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəlişindən sonra bu məsələlərə diqqətin artdığını deyən alim bildirmişdir ki, ulu öndər respublikamızda rəhbərliyə başlaması ilə arxeoloji tədqiqatların təkcə miqyası deyil, eyni zamanda istiqaməti də milli mənafelərə uyğun olaraq dəyişmişdir. Ümummilli lider Heydər Əliyev Naxçıvanın tarixinin, onun abidələrinin öyrənilməsinə xüsusi əhəmiyyət vermişdir. Məhz buna görə də XX əsrin 60-cı illərinin sonlarında ikinci Kültəpədə tədqiqatların başlanılması barədə göstəriş verilmiş və bu tədqiqatlar 1987-ci ilədək davam etdirilmişdir. Məhz bundan sonra arxeoloq-tarixçi Vəli Əliyev sübuta yetirmişdir ki, Naxçıvan şəhəri 3500 illik tarixə malikdir.

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru nəzərə çatdırmışdır ki, müstəqillik dövründə Naxçıvanın dünyaya səs salan qədim tarixinin öyrənilməsi üçün daha genişmiqyaslı tədqiqatlar aparılmışdır. O demişdir ki, 2001-2002-ci illərdə ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü və yardımı ilə geniş tərkibli Naxçıvan-Gəmiqaya ekspedisiyası təşkil olunmuşdur. Abidəyə təşkil edilən arxeoloji ekspedisiyanın nəticəsində bir çox yeni qayaüstü təsvirlər və arxeoloji abidələr aşkar edilmişdir. Naxçıvanın dağətəyi və düzən ərazilərinin arxeoloji abidələrində aparılan tədqiqatlar nəticəsində, bütövlükdə, Cənubi Qafqazın qədim dövr tarixinə dair maraqlı faktlar aşkar edilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Əməkdar elm xadimi, akademik İsa Həbibbəyli Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında 2014-cü il 14 yanvar tarixli Sərəncamını xatırladaraq bildirmişdir ki, həmin sənəd dövlət əhəmiyyətli siyasi-ideoloji mahiyyət daşımaqla bərabər, həm də tarixçilərin, arxeoloqların qarşısında ciddi vəzifələr qoymuşdur. Bu vəzifə Naxçıvanın qədim tarixini daha dərindən öyrənmək, onun xalqımızın zəngin mədəni irsinə, o cümlədən dünya sivilizasiyasına verdiyi töhfələri beynəlxalq elmi ictimaiyyətə çatdırmaqdan ibarətdir.



Akademik demişdir ki, 2002-ci ilin avqustunda AMEA-nın Naxçıvan Bölməsinin və onun nəzdində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun yaradılması mədəniyyət və memarlıq abidələri ilə zəngin qədim Naxçıvanın tarixinin öyrənilməsi istiqamətində əsaslı addımların atılmasına rəvac vermişdir. Aparılan tədqiqatlar nəticəsində bir daha aydın olmuşdur ki, qədim diyarın yerləşdiyi ərazi bəşər sivilizasiyasının mühüm ocaqlarından biridir. Burada qədim, orta əsrlər və müasir dövr mədəniyyət nümunələri və tarixi abidələr, ilk insanın yaşadığı mağaralar, qədim yaşayış yerləri, qədim şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr tədqiq edilmiş, bu barədə sanballı elmi araşdırmalar aparılmışdır.

Konfrans iştirakçılarının diqqətini dövlətimizin başçısının 2008-ci il 5 fevral və 2012-ci il 26 aprel tarixli sərəncamlarına cəlb edən akademik qeyd etmişdir ki, həmin sənədlərlə arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi üçün əlavə vəsaitin ayrılması Naxçıvan ərazisində tədqiqatları genişləndirməyə, arxeoloji ekspedisiyaların müasir texniki avadanlıqla təchiz olunmasına imkan vermişdir. Hazırda Arxeologiya və Etnoqrafiya İnstitutunun muxtar respublikanın ərazisində 7 arxeoloji ekspedisiyası fəaliyyət göstərir. Son tədqiqatlar nəticəsində Naxçıvan abidələrindən əldə olunmuş maddi dəlillər Azərbaycan arxeologiyasının bir sıra mühüm problemlərinin araşdırılmasında həlledici rol oynayır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Naxçıvan tarixi çoxcildliyinin hazırlanması və nəşr olunması barədə 2012-ci il avqustun 6-da imzaladığı Sərəncamı da xatırladan İsa Həbibbəyli demişdir ki, artıq çoxcildliyin birinci cildi oxuculara təqdim olunmuşdur. Kitabda 20-yə yaxın xəritə, arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş 100-ə yaxın maddi-mədəniyyət nümunələrinin, 60-dan çox kitabə və tarixi abidənin fotoşəkli yerləşdirilmişdir. Akademik onu da əlavə etmişdir ki, Naxçıvanın tarixi ilə bağlı qədim diyarda beynəlxalq səviyyəli nüfuzlu tədbirlərin keçirilməsi Azərbaycan dövlətinin tarixi keçmişimizin öyrənilməsinə verdiyi diqqətin nəticəsidir. Bununla həm arxeologiya və etnoqrafiya elmlərinin inkişafında Naxçıvan məktəbinin qazandığı təcrübə beynəlxalq ictimaiyyətə təqdim olunur, həm də tarixi düşmənlərimizin ortaya atdıqları iddiaların əsassızlığı elmi əsaslarla sübuta yetirilir.

AMEA-nın Milli Azərbaycan Tarix Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı bildirmişdir ki, bu gün Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin qeyd olunması mühüm əhəmiyyətə malikdir. Məlumdur ki, tarixi düşmənlərimiz daim Azərbaycana qarşı torpaq iddiası irəli sürür, qədim Naxçıvanın, guya, “böyük Ermənistan”ın tərkib hissəsi olduğunu iddia edirlər. Bu mənada muxtar respublikanın qədim tarixinin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu sahədə Naxçıvanda xeyli iş görülmüşdür. Aparılan arxeoloji tədqiqatların davam etdirilməsi isə göstərir ki, qarşıda bizi yeni-yeni uğurlar gözləyir.

Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov muxtar respublika rəhbərliyinin salamlarını konfrans iştirakçılarına çatdıraraq qeyd etmişdir ki, bu gün qədim diyarda aparılan arxeoloji qazıntılar, elmi araşdırmalar yüksək səviyyədə davam etdirilir. Ali Məclis Sədrinin 2005-ci ildə imzaladığı Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında Sərəncamdan sonra bölgədə 1200-dən artıq tarix və mədəniyyət abidəsi qeydə alınmış, həm Azərbaycan, həm də ingilis dilində müxtəlif elmi nəşrlər işıq üzü görmüşdür.

Daha sonra çıxış edən AMEA-nın müxbir üzvləri Vəli Əliyev, Yaqub Mahmudov, tarix elmləri doktoru, professor Oqtay Sultanov Naxçıvanın qədim tarixindən geniş söhbət açmışlar. Bildirilmişdir ki, muxtar respublikada formalaşmış Naxçıvan məktəbi həm də arxeologiya və etnoqrafiya elmlərinin inkişafı üçün nümunə təşkil edir.

Aprelin 29-da yekunlaşacaq elmi konfrans bölmə iclasları ilə davam etdirilmişdir.

***AzərTAc***

# Şərur rayonunda bələdiyyələrin fəaliyyəti müzakirə edilib

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Şərur rayonunda bələdiyyələrin fəaliyyəti ilə bağlı maarifləndirici tədbir keçirib.*



Tədbiri giriş sözü ilə Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov açıb.

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxışında Şərur rayonu üzrə nazirlik tərəfindən keçirilən hüquqi maarifləndirmə tədbirlərindən danışıb, bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsinin, yerli özünüidarəetmə orqanları arasında əməkdaşlığın gücləndirilməsinin, bələdiyyə qanunvericiliyinin öyrənilməsi və tətbiq edilməsinin, bələdiyyələrdə kargüzarlıq işlərinin qanunvericiliyin tələblərinə uyğun qurulmasının günün tələblərindən olduğunu deyib.

Nazir onu da qeyd edib ki, Şərur rayonunda fəaliyyət göstərən bələdiyyələrdə qanunvericiliyin təmin olunması və kargüzarlığın müvafiq normativ aktların tələblərinə uyğun aparılmasının öyrənilməsi məqsədilə son 5 ildə nazirlik əməkdaşları tərəfindən rayon İcra Hakimiyyəti ilə birlikdə 16 dəfə araşdırmalar aparılıb və aşkar olunan nöqsanların aradan qaldırılması üçün bələdiyyələrə lazımi metodik köməkliklər göstərilib. Lakin seminar-müşavirələr, yoxlamalar, əməli köməkliklər zamanı edilmiş tövsiyə və təkliflərə baxmayaraq, bu gün rayon üzrə bələdiyyələrin bir neçəsinin fəaliyyətində hələ də nöqsanlar və çatışmazlıqlar qalmaqdadır. Təəssüflər olsun ki, verilmiş tövsiyə və tapşırıqlardan sonra təkrar olaraq yenidən bələdiyyələrdə araşdırmalar apararkən müəyyən edilib ki, əməkdaşlar tərəfindən görülən işlər olduğu kimi hərəkətsiz saxlanılıb, nöqsanlar aradan qaldırılmayıb. Yerli özünüidarəetmə orqanlarına göstərilən diqqət və qayğının müqabilində bələdiyyələr işlərini günün tələbləri səviyyəsində qurmalıdırlar.

Tədbirə Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov yekun vurub.

**Kərəm HƏSƏNOV**

# İnformasiya-kommunikasiya texnologiyaları imkanlarından istifadəyə həsr olunmuş elmi konfrans

Naxçıvan Dövlət Universitetində "Tədris proqramının təkmilləşdirilməsində informasiya-kommunikasiya texnologiyaları imkanlarından istifadənin rolu" mövzusunda elmi konfrans keçirilmişdir. Universitetin rektoru, professor Saleh Məhərrəmov konfransı giriş sözü ilə açaraq Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafına xidmət edən dövlət siyasətindən, müasir texnologiyaların elmdə və tədrisdə tətbiqinin əhəmiyyətindən danışmışdır. Rektor həmçinin universitetdə ənənəvi "Elektron Naxçıvan" və "Elektron universitet" layihələrinin həyata keçirilməsindən, müasir elektron kitabxananın yaradılmasından, distant təhsilə keçiddən, virtual əməkdaşlığın inkişafından, onlayn dərslərin təşkilindən, Cənubi Koreyanın KOİCA şirkəti ilə birgə "Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsinin tətbiqindən bəhs etmişdir.

Elmi konfransda universitetin müəllimlərindən pedaqoji elmlər doktoru Elbəyi Maqsudov "Fonetikanın tədrisi prosesində informasiya texnologiyalarından istifadə", iqtisad üzrə fəlsəfə doktoru, dosent Gülarə Rəhimova "Distant təhsildə informasiya-kommunikasiya texnologiyalarından istifadə: imkanlar və perspektivlər", pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayev "Müasir informasiya texnologiyaları: təlimdə yeni keyfiyyət dəyişikliklərinin əsası kimi", biologiya üzrə fəlsəfə doktoru, dosent Hilal Qasımov "Çiçəkli bitkilərin təsnifatı" bəhsinin informasiya-kommunikasiya texnologiyaları vasitəsilə öyrədilməsi", psixologiya üzrə fəlsəfə doktoru Salatın Hacıyeva "Təlimdə İKT-dən istifadənin psixoloji əsasları", pedaqogika üzrə fəlsəfə doktoru Orxan Cəfərov "İnformasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə elektron dərs hazırlamağın metodikası", pedaqogika ixtisasının I kurs magistrantı Aygül İsayeva "Ağıllı lövhə"dən istifadə qaydalarının öyrədilməsi" mövzularında məruzələrlə çıxış etmişlər.



Məruzələrdə Azərbaycanda təhsil sisteminin modernləşdirilməsinin, informasiyalı cəmiyyət quruculuğunun, müasir texnologiyalardan istifadə etməklə yeni bilik və məlumatların mənimsədilməsinin əhəmiyyətindən bəhs olunmuşdur. Qeyd olunmuşdur ki, müxtəlif elm sahələrinin tədrisində informasiya-kommunikasiya texnologiyalarından istifadə, slayd, animasiya və videokadrların nümayişi tədrisdə əyanilik, informasiyanın qavranılması və mübadiləsi prosesini sürətləndirmək, vaxta qənaət, təfəkkürün inkişafı, bilik və təsəvvürlərin təkmilləşdirilməsi baxımından mühüm rol oynayır.

**Mehriban SULTAN**

# Naxçıvan Qızlar Liseyində diskussiya

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurası Naxçıvan Qızlar Liseyi müəssisədənkənar ərazi ilk təşkilatı ilə birgə Naxçıvan Qızlar Liseyində "Təhsil müəssisələrində Azərbaycan xanımını necə yetişdiririk?" mövzusunda diskussiya keçirmişdir. Diskussiyada qeyd olunmuşdur ki, Naxçıvan tarixin bütün dövrlərində həm tarix və mədəniyyət baxımından, həm də geocoğrafi baxımdan həmişə maraq doğurmuşdur. Bu qədim diyar işğal xarakteri daşıyan hücumlara məruz qalsa da, bütün çətinliklərə sinə gərərək öz varlığını qoruyub saxlaya bilmişdir.

Tariximizə müraciət etsək, görərik ki, istər ölkəmizin, istərsə də muxtar respublikamızın ictimai-siyasi həyatında qadınlarımızın danılmaz rolu olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev nəinki Azərbaycan qadınının əməyini, fəaliyyətini yüksək qiymətləndirmişdir, eyni zamanda onun fəaliyyəti üçün münbit şərait yaratmışdır.

Muxtar respublikamızda da zəhmətkeş, xalqı üçün çalışıb mübarizə aparan qadınlar olmuşdur. Bu gün dövlətimiz qadın əməyinə yüksək qiymət verir. Qadınlarımızın yüksək vəzifələr tutması, onların parlamentdə təmsil olunması Azərbaycan dövlətinin qadınlara göstərdiyi etimadın və onların əməyinə verdiyi qiymətin bariz nümunəsidir.

Naxçıvan Qızlar Liseyinin direktoru Aidə Allahverdiyeva diskussiyada bildirmişdir ki, liseydə ancaq qızlar təhsil alırlar. Biz çalışırıq ki, intellektual səviyyəli, yüksək savadlı, milli dəyərlərimizə sahib çıxa bilən, milli adət-ənənələrimizi yaşadıb gələcək nəsillərə çatdıracaq və eyni zamanda sağlam ailə təməlini qoyacaq xanım qızlar yetişdirək.

# AMEA Naxçıvan Bölməsində elmi işçilərin attestasiyasına başlanılıb

Azərbaycan Respublikası Nazirlər Kabinetinin16 iyun 2013-cü il tarixli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında elmi işçilərin attestasiyasının keçirilməsi Qaydaları"na uyğun olaraq, AMEA Naxçıvan Bölməsində 47 elmi işçinin attestasiyası keçirilib. Bu barədə AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyəti 4 mart 2014-cü il tarixdə qərar verib. Qərara əsasən, AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru Tariyel Talıbovun sədrliyi ilə komissiya yaradılıb. Sədr, katib və 11 üzvdən ibarət olan komissiya attestasiyadan keçəcək işçilərin rəy, xasiyyətnamə və digər sənədləri ilə tanış olub.

Aprelin 28-də bölmə tərkibində fəaliyyət göstərən iki elmi-tədqiqat institutunun – Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun və İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işçiləri attestasiyadan keçirilib. Təbii Ehtiyatlar və Bioresurslar institutlarının işçilərinin attestasiyası aprelin 29-da, Batabat Astrofizika Rəsədxanası və Əlyazmalar Fondunun elmi işçilərinin attestasiyası isə aprelin 30-da keçiriləcək.

**Xəbərlər şöbəsi**

*Futbol*

# "Araz-Naxçıvan"a çempion olmaq üçün bir xal lazımdır

*Çempionluq yolunda əmin addımlarla irəliləyən "Araz-Naxçıvan" futbol komandası növbəti qələbəsini bayram edib. Səfərdə "Karvan" futbol komandasının qonağı olan muxtar respublika klubu 1:3 hesablı qələbə qazanmaqla cari mövsümdə qalibiyyət sayını 22-yə yüksəltdi və liderliyini davam etdirdi. Bununla, qırmızı-ağlar Yevlaxda qazandıqları qələbə sayəsində həm turnir cədvəlindəki mövqelərini qorudular, həm də çempion olmaq üçün əla şans əldə etdilər.*

### Qələbəyə heç nə mane ola bilmədi

Yevlaxda keçirilən oyun böyük əhəmiyyət kəsb edirdi. Ən yaxın izləyicisini 9 xal qabaqlayan "Araz-Naxçıvan"a bu görüşün qalibi olacağı təqdirdə çempionluq üçün yalnız 1 xal kifayət edirdi. Buna görə məhz "Karvan" üzərində mütləq qələbəni qarşısına məqsəd qoyan komandanın baş məşqçisi Əsgər Abdullayev əsas heyəti meydana buraxmışdı. Qapıda Emil Balayevə güvənən Ə.Abdullayev müdafiəni yenə Ruslan-Mikayıl-Cavid-Əlimirzə kvartetinə tapşırmışdı. Yarımmüdafiə xəttində Eşqin-Akif-Elgiz triosu həmişəki mövqeyində qalmışdı. Bu dəfə Tərlan Xəlilov həmişəki mövqeyindən fərqli yerdə çıxış edirdi. Hücumun sol cinahında özünə yer alan T.Xəlilovla yanaşı, Elmin Çobanov və David Canıyev də rəqibin müdafiə xəttini yarmağa çalışırdı.

Muxtar respublika klubu Naxçıvandakı ilk oyunda Yevlax təmsilçisi qarşısında baxımlı oyun sərgiləsə də, qapıya yol tapmaqda çətinlik çəkmişdi. Lakin son 20 dəqiqədə özünə gələn qırmızı-ağlar rəqibini darmadağın etməyə müvəffəq olmuşdular. Yevlaxlılar komandamız üzərində qələbə qazanmaq üçün meydana əsas heyətləri ilə çıxmışdılar. Rəqibin oyundan öncə atdığı addım diqqətdən yayınmadı. Belə ki, bir gün öncə yağışın yağması ilə onsuz da yararsız bir halda olan stadionun ot örtüyü oyundan bir neçə saat əvvəl sulandı. Nəticədə, arenada futbol oynamaq üçün yararsız vəziyyət yarandı. Lakin bu, komandamızın qələbəsinə maneçilik törətmədi.

### İkinci oyunda ikinci dubl

Oyunun gərgin şəraitdə keçəcəyini öncədən bilən hər iki rəqib əvvəlcə kəşfiyyat xarakterli oyuna üstünlük verdilər. Daha çox müdafiədən hücuma atılmaq həvəsində olan komandalar ara-sıra müdafiədə boşluqlar buraxdılar. Bundan ilk istifadə edən isə meydan sahibləri oldu. İlk 10 dəqiqənin tamamında heç kimin gözləmədiyi halda "Karvan" tablodakı sıfırları dəyişməyə müvəffəq oldu. Belə ki, sağ cinahdan qapımız önünə şığıyan Əli Bağırov oyunda ilk qola imza atdı. Erkən vurulan qol komandamızı ruhdan salmadı və qırmızı-ağlar əzmkarlıqlarını bir daha meydanda nümayiş etdirdilər. Hücuma atılan komandamız ilk 20 dəqiqədə iki dəfə hesabı dəyişə bilərdi. Hər iki epizodda Tərlan Xəlilovun cərimə zərbəsindən vurduğu toplar təhlükə yaratsa da, rəqib müdafiəçilər sayıqlığı əldən vermədilər. Lakin T.Xəlilov oyunun ilk hissəsinin başa çatmasına 6 dəqiqə qalmış istəyinə nail oldu. Elmin Çobanovun sol cinahdan etdiyi asmadan sonra Tərlan başı ilə toru silkələməyə müvəffəq oldu – 1:1. Qoldan daha da ruhlanan qırmızı-ağlar hücumlarına ara vermədi.

İkinci hissədə meydan sahibləri bir qədər aktivliyini artırdı. Ancaq qapıçı Emil Balayevin inamlı oyunu rəqibin sevinməsinə imkan vermədi. Əvəzində isə rəqibin hücumçusu Ə.Bağırovla bombardirlik cədvəlində yarışan David Canıyev "Karvan"ı ikinci dəfə mərkəzə dəvət etdi. Bu dəfə cərimə zərbəsindən Eşqin Quliyevin asması cərimə meydançasında təhlükəli anlar yaratdı. Qarışıqlıqdan istifadə edən David toru silkələməyə müvəffəq oldu – 1:2. Məğlubiyyəti həzm edə bilməyən meydan sahibləri müdafiədə boşluqlar yaratmağa başladılar. Bundan isə Naxçıvan təmsilçisi maksimum istifadə etdi. Sağ cinahdan ötürmə alan Akif Tağıyev sürətli reydlə cərimə meydançasına daxil oldu və David Canıyevə ideal ötürmə etdi. Hücumçumuz isə, öz növbəsində, toru silkələməkdə çətinlik çəkmədi – 1:3. Bu, Davidin ardıcıl ikinci matçda ikinci dublu oldu. Həmçinin o, cari mövsümdə 18-ci qoluna imza atdı. Oyun barədə maraqlı olan nüans isə cari mövsümdə keçirilən hər iki görüşün eyni hesabla başa çatmasıdır. Hətta hər iki matçda hesabı "Karvan" açsa da, sonradan komandamız 3 qol vuraraq meydanı 3 xalla tərk edib.

Bu qələbədən sonra xalını 70-ə yüksəldən "Araz-Naxçıvan" futbol komandası liderliyini davam etdirdi. İndi komandamızın çempion olmağına mayın 2-də "Şəmkir" futbol komandası ilə keçiriləcək görüşdə bir xal qazanması belə, kifayətdir.

**Ceyhun MƏMMƏDOV**

# Həkim briqadası Sədərəkdə uşaqları tibbi müayinələrdən keçirib

Ötən şənbə günü Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının pediatr, stomatoloq, oftalmoloq, dermatoloqlardan, ultrasəs müayinə mütəxəssislərindən və laborantlardan ibarət həkim briqadası Sədərək Rayon Mərkəzi Uşaq Xəstəxanasında uşaqlara profilaktik tibbi xidmət göstərmişdir. Briqadanın fəaliyyəti zamanı 77 nəfər 0-18 yaşlı əhali profilaktik, o cümlədən 12 nəfər laborator müayinədən keçirilmiş, 80 nəfər valideynlə səhiyyə maarifi işi aparılmışdır. Dispanserizasiya işinin düzgün təşkili, peyvəndlərin təqvim üzrə aparılması, tibbi sənədləşmənin həyata keçirilməsi üçün xəstəxananın və Heydərabad qəsəbəsindəki feldşer-mama məntəqəsinin tibb bacılarına metodik məsləhətlər verilmişdir. Aşkar edilmiş bəzi xəstələrin ələvə müayinə və müalicəsi üçün müvafiq səhiyyə müəssisələrinə getmələri tövsiyə edilmiş, xəstələr pulsuz dərman və sarğı materialları ilə təmin olunmuşlar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***


***Bildiriş***

"Hikmət" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200101091) möhür və künc ştampı itdiyindən və fəaliyyəti dayandırıldığından ləğv olunur.

***İtmişdir***

Yüzbaşıyev Musa Qasım oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.


***Allah rəhmət eləsin***

Naxçıvan Tibb Kollecinin direktoru İlhamə Mustafayeva və kollecin kollektivi tələbə **QIZILGÜL SÜLEYMANOVANIN** vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Şəhər Elektrik Şəbəkəsinin kollektivi iş yoldaşları **HABİL ƏLİYEVİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun və Batabat Astrofizika Rəsədxanasının kollektivləri iş yoldaşları İlyas Xəlilova, əzizi **QƏZƏNFƏRİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Hüseynov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 387